**Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında hüquq sahəsində nəzəri və təcrübi biliklərin artırılmasına dair birgə əməkdaşlıq haqqında**

# ANLAŞMA MEMORANDUMU

Bu Birgə Əməkdaşlıq haqqında Anlaşma Memorandumu (bundan sonra – Memorandum) bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Ali Məhkəməsi (bundan sonra – Ali Məhkəmə) və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (bundan sonra – DİA) arasında bağlanmışdır.

## Maddə 1
## Memorandumun məqsədi və əməkdaşlıq çərçivəsində görüləcək işlər

**1.1.** Bu Memorandum Tərəflər arasında hüquq sahəsində nəzəri və təcrübi biliklərin artırılmasına dair əməkdaşlıq haqqında sənəddir. Memorandum üçüncü tərəflərə münasibətdə öhdəliklər yaratmır və Tərəflərin hər birinin iştirakçısı olduğu digər sənədlərdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.
**1.2.** Memorandumun məqsədi:
**1.2.1.** DİA-da hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin, doktorantların Ali Məhkəmə Aparatının struktur bölmələrində təcrübə keçməsi;
**1.2.2.** DİA-nın Hüquq kafedrasının metodik materiallarına və elmi əsərlərə Ali Məhkəmənin müvafiq struktur bölmələri tərəfindən, habelə Ali Məhkəmə tərəfindən hazırlanmış həmin vəsaitlərə DİA-nın Hüquq kafedrasının əməkdaşları tərəfindən rəylərin, tövsiyələrin verilməsi;
**1.2.3.** Birgə elmi konfransların, dəyirmi masaların və görüşlərin keçirilməsi;
**1.2.4.** Elmi məqalələrin, tədris-metodiki vəsaitlərin və mətbu nəşrlərin hazırlanması;
**1.2.5.** Hüquq tətbiqi fəaliyyətində daha çox rast gəlinən problemlərin həlli məqsədilə birgə elmi-praktiki araşdırmaların aparılması;
**1.2.6.** Ali Məhkəmə Aparatının elmi dərəcəyə malik olan əməkdaşlarının DİA-da hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin və doktorantlartın hazırlığı prosesində iştirak etməsi;
**1.2.7.** DİA-nın professor-müəllim heyətinin Ali Məhkəmənin Aparatında fəaliyyət-göstərən inzibati vəzifə tutan əməkdaşlarının ixtisasartırma prosesinə cəlb edilməsi;

**1.2.8.** Hüquq ədəbiyyatlarına əlçatanlığın asanlaşdırılması məqsədilə DİA-nın kitabxanasından Ali Məhkəmə Aparatının əməkdaşları tərəfindən istifadə edilməsi məqsədilə imkanların yaradılması;
**1.2.9.** Tərəflərin müvafiq əməkdaşlarının nəzəri biliklərinin və peşə hazırlığının artırılması məqsədilə birgə təlim kurslarının, seminar-treninqlərin və mühazirələrin təşkili;
**1.2.10.** DİA-nın tələbələrinin könüllülər qismində Ali Məhkəmənin Aparatında könüllü fəaliyyət münasibətlərini tənzimləyən müqavilə əsasında işə cəlb edilməsi.

**Maddə 2**

**Müddət, xitam vermə və düzəliş**

**2.1.** Bu Memorandum imzalandığı gündən qüvvəyə minir.
**2.2.** Memorandum 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri Memorandumun bitməsinə ən azı 1 (bir) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi növbəti 5 (beş) il müddətinə prolonqasiya (heç bir müzakirəyə ehtiyyac olmadan sənədin qüvvədə olma müddətinin eyni müddətə uzadılması) olunur.
**2.3.** Tərəflərdən biri digərinə yazılı xəbərdarlıq etməklə bu Memoranduma xitam verə bilər.
**2.4.** Tərəflərin qarşılıqlı razılığı əsasında bu Memoranduma ayrıca protokollarla əlavələr və dəyişikliklər edilə bilər.

**Maddə 3**

**Yekun müddəalar**

**3.1.** Ali Məhkəmə tərəfindən Aparatın rəhbəri, DİA tərəfindən isə müqavilənin icrası üzrə məsul şəxs Hüquq kafedrasının müdiri müəyyən edilsin.
**3.2.** Tərəflər bu Memorandum ilə nizamlanan münasibətləri Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun həyata keçirirlər.
**3.3.** Bu Memorandum Bakı şəhərində 2022-ci il 26 may tarixində iki nüsxədə imzalanmış və hər bir tərəfdə bir nüsxə saxlanılır.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri** | **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik** |
| **Ramiz Yaqub oğlu Rzayev** | **Urxan Kazım oğlu Ələkbərov** |
| (imza) | (imza) |